Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

# Vətəndaş cəmiyyətləri türk dünyasının güc mənbələrindən birinə çevrilir....

**Məlum həqiqətdir ki, türk dünyası geniş coğrafiyanı, o cümlədən zərbaycanı, Türkiyəni, Mərkəzi Asiya respublikalarını və digər türk toplumlarını hatə edən siyasi, tarixi və mədəni məkan kimi XXI əsrdə yeni inteqrasiya mərhələsinə qədəm qoyub. Türk Dövlətləri Təşkilatının yaranması, iqtisadi-coğrafi dəhlizlərin inkişafı, enerji və nəqliyyat layihələrinin genişlənməsi bu birliyin siyasi və iqtisadi əsaslarını gücləndirir. Lakin günümüzün qlobal reallığında dövlətlərarası əməkdaşlıq təkcə hökumətlər səviyyəsində deyil, həm də cəmiyyətlərin fəal iştirakı ilə davamlı və dayanıqlı ola bilər. Bu kontekstdə vətəndaş cəmiyyəti institutları türk dünyasının güclənməsində strateji rol oynayır.**



**Bakıda ilk dəfə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-lərinin həmrəylik forumu keçiriləcək**

O da xüsusi qeyd edilməlidir ki, Azərbaycan türk dünyasının güclənməsində vətəndaş cəmiyyəti institutlarının yaxından iştirakına xüsusi diqqət edir. Elə bundan irəli gəlir ki, Bakıda ilk dəfə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumu keçiriləcək.

Noyabrın 23-dən 26-na kimi davam edəcək forum çərçivəsində "Zəngəzur dəhlizi: türk coğrafiyasını birləşdirən körpü", "WUF13-ə doğru - Türk dünyasında ilk" adlı panel müzakirələri təşkil olunacaq. Toplantıda Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Macarıstan və Şimali Kipr Türk Respublikasından 300-ə yaxın QHT təmsilçisi iştirak edəcək. Tədbir çərçivəsində "Azərbaycan-Qazaxıstan QHT-lərinin I Əməkdaşlıq Forumu" da təşkil olunacaq. Forum Bakıdan sonra öz işini Naxçıvan Muxtar Respublikasında davam etdirəcək. Naxçıvan şəhərində Türk Dövlətləri Təşkilatına Üzv Dövlətlərin QHT-lərinin Platformasının təsis olunması da gözlənilir. Bu Platformada 8 ölkədən QHT-lər birləşəcək. Qeyd edək ki, bu ilin aprelində Bakıda dünyanın üçdə ikisi hissəsini əhatə edən bölgədən olan vətəndaş cəmiyyəti təsisatlarının iştirakı ilə Qlobal Cənub QHT Platforması da təsis olunub. Amma indi konkret türk dünyasının inteqrasiya prosesində də Azərbaycan vətəndaş cəmiyyəti institutlarının aktiv rol oynaması istiqamətində mühüm fəaliyyət həyata keçirir.  Türk dünyasında vətəndaş cəmiyyətinin güclənməsi iki fundamental nəticə doğurur. Birincisi, xalq diplomatiyasını genişləndirir, millətlər arasında qarşılıqlı etimad yaradır. İkincisi, dövlətlərarası münasibətləri daha dayanıqlı və uzunmüddətli edir. Burada qeyd edək ki, mədəniyyət türk dünyası birliyinin ideoloji təməlidir. Bu baxımdan vətəndaş cəmiyyəti institutlarının mədəni əlaqələrin inkişafındakı rolu danılmazdır. Mədəniyyət mərkəzləri, gənclər təşkilatları və qeyri-rəsmi şəbəkələr ortaq dəyərlərin, dil və tarix birliyinin təbliği üçün mühüm layihələr həyata keçirir.  Birgə festivallar, kitab təqdimatları, film həftələri, təhsil mübadilə proqramları türk xalqları arasında qohumluğu və mənəvi yaxınlığı gücləndirir. Bu cür humanitar körpülər rəsmi siyasət çərçivədə mümkün olmayan çoxşaxəli əlaqələri daha da dərinləşdirir. Müasir dünyada güc təkcə iqtisadi göstəricilər və hərbi imkanlarla ölçülmür. İntellektual potensial, innovasiya və elmi əməkdaşlıq qlobal rəqabətə təsir edən əsas amillərdəndir. Türk dünyasında universitetlərarası alyanslar, elmi konfranslar, tələbə mübadiləsi proqramları, ortaq tədqiqat mərkəzləri məhz vətəndaş cəmiyyətinin təşəbbüsləri ilə inkişaf edir. Tədqiqat institutları və beyin mərkəzləri türkdilli dövlətlərin regional siyasətinə dair analitik təkliflər hazırlayır, bu isə strateji qərarların formalaşmasına yardım edir. Beləliklə, vətəndaş cəmiyyəti həm intellektual, həm də strateji səviyyədə birliyin əsaslandırılmasına töhfə verir.

**Müstəqil media strukturları türk dünyasında informasiya mübadiləsinin əsas kanallarına çevrilib**

Türk dünyasında iqtisadi əməkdaşlıq əsasən dövlətlərarası razılaşmalar çərçivəsində həyata keçirilsə də, vətəndaş cəmiyyətinin bu prosesə təsiri də böyükdür. Sahibkar birlikləri, biznes assosiasiyaları və müstəqil iqtisadi platformalar türk ölkələri arasında ticarət əlaqələrini genişləndirir, investisiya imkanları haqqında məlumat mübadiləsi aparır, iş adamlarının qarşılıqlı əlaqələrini təşkil edir.

QHT-lərin həyata keçirdiyi biznes forumlar və sahibkarlıq layihələri təkcə iqtisadi canlanma yaratmır, həm də dövlətlər arasında strateji tərəfdaşlığı dərinləşdirir. Bu isə türk dünyasının qlobal iqtisadi sistemdə daha güclü mövqeyə sahib olmasına şərait yaradır. Rəqəmsal dövrdə sosial şəbəkələr və müstəqil media strukturları türk dünyasında informasiya mübadiləsinin əsas kanallarına çevrilib. Onlar ortaq məkan ideyasının təbliği, dezinformasiya ilə mübarizə və ümumi ictimai yaddaşın formalaşdırılmasında mühüm rol oynayır. Bunun konkret sübutlarından biri kimi cari ilin sentyabrında Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçirilən "Rəqəmsal Transformasiya və Media" mövzusunda II Azərbaycan-Özbəkistan Media Forumunu göstərmək olar. Forumda çıxış edən Özbəkistan Respublikası Prezidenti Administrasiyasının Kommunikasiya şöbəsinin sektor müdiri Dilşod Saidjanov iki qardaş ölkə - Azərbaycan və Özbəkistan arasında media sahəsində əməkdaşlığın genişləndirilməsinin önəmini qeyd edib. O bildirib ki, ortaq tarixi və mədəni dəyərlərə söykənən bu əlaqələr informasiya mübadiləsinin intensivləşdirilməsi, dezinformasiyaya qarşı birgə mübarizə strategiyalarının formalaşdırılması və regional informasiya təhlükəsizliyinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, gənclərin liderliyində olan rəqəmsal təşəbbüslər türk dünyasının geokulturoloji və geosiyasi xəritəsini daha aydın şəkildə göstərir, yeni nəsillərin türk kimliyinə bağlılığını artırır. Ümimiyyyətlə, türk dünyasının güclənməsi yalnız dövlətlərarası siyasi iradə ilə deyil, həm də cəmiyyətlərin fəal iştirakı ilə mümkün ola bilər. Vətəndaş cəmiyyəti institutları mədəni inteqrasiyanı dərinləşdirir, elmi potensialı artırır, iqtisadi əməkdaşlığı genişləndirir və xalqlar arasında qarşılıqlı inam yaradır. Bu proses türk dünyasını regional platformadan qlobal təsir gücünə malik inteqrasiya modelinə çevirmək üçün vacibdir. Güclü vətəndaş cəmiyyəti isə güclü türk dünyasının təməl sütunlarından biridir.

*Tahir TAĞIYEV*

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.*